UOT:73.76.

TƏSVİRİ SƏNƏTDƏ MƏNZƏRƏ TƏSVİRLƏRİNİN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ

Məmmədov Faiq Şaiq oğlu

Gəncə Dövlət Universiteti

Tunzalehuseyinova70@gmail.com

Xülasə: *Məqalədə verilən mənzərə təsviri sənətin elə əsərlərinə deyilir ki, orada təbiətin təsviri başlıca yer tutur. Əgər mənzərəyə insan və ya heyvan fiquru daxil edilibsə, bu yalnız təbiətin canlandırılmasına xidmət edir. Burada mənzərə təsvirlərinin təlim və metodları göstərilmişdir. Bütün bu metod və təlimlər yeni işə başlayan rəssamlar üçün çox vacibdir və bu onlara xeyir gətirə bilər.*

Açar sözlər: mənzərə, rəng, təbiət, obraz, fəza

Key words: landscape, colour, nature, image, space

Ключевые слова: пейзаж, цвет, природа, образ, пространство

Təbiət obrazlarının təsvirləri xüsusiyyətləri də bir çox özünəməxsusluqları olsa da əlbəttə, təsviri sənətin bütün sahələrinə xas olan xüsusiyyətləri özündə cəmləşdirir. Təbiət obrazları ayrıca verilməklə yanaşı bir çox hallarda insan, heyvan və s. fiqurları təsvir olunan zaman arxa plan – "mənzərə fonu" rolunu da oynayır. Lakin sözün əsl mənasında mənzərə təsviri sənətin elə əsərlərinə deyilir ki, orada təbiətin təsviri başlıca yer tutur. Əgər mənzərəyə insan və ya heyvan fiquru daxil edilibsə, bu yalnız təbiətin canlandırılmasına xidmət edir.

Pedaqoji prosesdə mənzərə (peyzaj) təsvirləri ilə tanışlıq tədris ili boyu işlənmiş əvvəlki tapşırıqlardan (natürmortlardan, ornamentlərdən və s.) özünəməxsus xüsusiyyətləri ilə nəzərəçarpacaq dərəcədə fərqlənir. Belə ki, artıq mənzərə təsvirlərində rəng həlli lokal (yerli) rənglərə əsaslanır. Ona görə də rənglərin dərkedilmə, başadüşülmə və mənzərənin rəng həlli prosesi lokal rənglərin müşahidəsini tələb edir. Lokal rənglərin başadüşülməsi artıq əhəmiyyətli nailiyyət sayılır. Rənglərin dərkedilmə və başadüşülmə prosesinin növbəti inkişafı fəza ortamında lokal rənglərin müşahidəsidir.

Qeyd etdiyimiz kimi mənzərə lokal rənglərdən düzgün istifadəni və onların təsvirdə baxılmasını tələb edir. Burada birinci növbədə rənglərin parlaqlılıq dərəcəsinə görə dərkedilməsi, mövcud fəza şəraitində (məsafə, işıqlanma, vəziyyət və s.) rənglərin ümumiləşdirilməsi, əşyaların fiziki əlamətlərinin təsvir olunaması prosesi deyil, ümumi obrazlarının (texnikadan asılı olaraq) təsviri tapşırığı qarşıya məqsəd qoyulur. Nəhayət o tələb edir ki, təsviri və texniki vasitələrdən səmərəli istifadə etməklə düzgün mənzərə obrazı yaradılsın.

Mənzərə seçmək – deməli təbiətin gözümüz önündəki müəyyən panoramasını: hansı ki, öz əşyalar tərkibinə, fiziki məzmununa, xarakterinə, koloritinə, plastik keyfiyyətlərinə görə bütöv kompozisiya təşkil edən, eyni hava şəraitini, günün-ilin eyni vaxtını və s. əks etdirən təbiətin bir anını seçməkdir.

Mənzərə çəkməyə yeni başlayanlar üçün çox da mürəkkəb görüntü seçmək lazım deyil – elə görüntü seçmək lazımdır ki, sadə və ciddi baxılsın. Bu həyətin bir sahəsi, tarixi bir binanın görüntüsü, gölün və çayın sahili və s. ola bilər.

Mənzərə işləməzdən əvvəl onun ayrı-ayrı detallarını karandaşla rəsm etməyi öyrənmək lazımdır. Mənzərənin təsirliliyi və ifadəliliyi rəssamın mənzərənin ayrı-ayrı elementlərini, obyektlərini və detallarını: agacları, buludları, dağları, çoxplanlı relyefi rəsmetmə bacarığından çox asılıdır. Bu cür bacarıqlar olmadan mənzərəyə daxil olan ağaclar eyni formada, təbiət, buludlar, meşə və s. cansız, az ifadəli alınacaqdır. Odur ki, mənzərə təsviri təbiətin ciddi öyrənilməsini tələb edir.

Hər bir ağac növü ayrı-ayrılıqda müəyyən quruluşa malikdir. Məsələn, bütün qovaq ağaclarının quruluşu eyni olsa da palıd, cökə, şam və s. ağacların quruluşundan tamamilə

fərqlidir. Həmçinin eyni ağac növləri içərisində də tamamilə eyni quruluşa malik ağacları tapmaq mümkün deyildir.

Ağaclar arasındakı fərq təkcə onların formasında və yarpaqlarının quruluşunda deyil, həmçinin gövdələrinin quruluşunda, budaqlarının formasında və nisbətlərində də mövcuddur. Bir qrup ağaclarda budaqlar gövdəylə sakit, tədricən, digər qrup ağaclarda isə kəskin, bucaq şəkilli birləşməyə malikdir. Ağacın növündən asılı olaraq budaqlar özünəməxsus şəkildə inkişaf edir. Mənzərə təsvirlərində bütün bu xüsusiyyətlər nəzərə alınmalıdır ki, mənzərəyə daxil edilən müxtəlif növ ağaclar düzgün işlənsin.

İşlənəcək mənzərəni seçərkən onun etüddə necə görünəcəyini nəzərə almaq lazımdır. Rəsmin çəkildiyi kağızda və ya kətanda mənzərəni təşkil edən elementlərin (ağacların, dağların, çayın, gölün, səmanın və s.) yerləşdirilməsini təsəvvürdə canlandırmaq lazımdır. Təbiətin kiçik bir sahəsinin məharətlə seçilərək düzgün təsvir olunması gözəl bir mənzərə təsvirini gözlərimiz önündə canlandıra bilər.

Mənzərənin təsviri zamanı baxış nöqtəsinin düzgün seçilməsinin çox böyük əhəmiyyəti vardır. Yaxına getməklə və ya uzaqlaşmaqla elə bir nöqtə seçilməlidir ki, təsvir olunan yerin xarakteri, quruluşu, gözəlliyi tam aydınlığı ilə görünsün. Beləliklə, məsələn geri çəkməklə biz əşyaları kiçilmiş, onların üzərindəki səmanı isə daha böyük görürük; qabağa getdikcə isə bunun əksinə. Əgər nəzərə alsaq ki, etüd zamanı mənzərə şəkil müstəvisinin kənarları ilə məhdudlaşır, onda aydın olur ki, səma, təbiət və əşyalar arasında lazımi əlaqəni düzgün tapmaq necə vacib məsələdir.

Mənzərəyə tamaşa edərkən onun perspektiv obrazı haqqında da aydın təsəvvür olmalıdır. Perspektiv məsələlərə düzgün əməl edilməzsə mənzərənin təsvirində istənilən effekt əldə edilə bilməz. Perspektiva və əşyaların nisbətləri kompozisiyanın əsas faktorlarındandır.

Mənzərə rəsmi xətti və fəza perspektivaları haqqında əsaslı biliklər tələb edir. Mənzərə təsvirində bu iki perspektiva növü bir-birini tamamlayır. Yalnız xətti perspektivaya düzgün əməl olunması təsvirin düzgün (savadlı) işlənməsini təmin etmir. Bütün əşyalar bizdən uzaqlaşdıqca təkcə kiçik görünmürlər, həm də fəza ortamında sanki əriyib gedirlər. Yaxında olan əşyalar isə daha dəqiq görünürlər. Belə ki, yaxınlıqda olan əşyalara (ağaclara, kollara, bitkilərə, daşlara və s.) baxdıqda biz onların nəinki siluetlərini, hətta ən xırda detallarını ayırd edirik. Uzaqlaşdıqca isə xırda detallar az hiss olunur. Ona görə də bizə yaxın olan əşyaları dəqiq, aydın, güclü işıq-kölgə ilə, ayrı-ayrı detalları nəzərə çatdıraraq rəsm etməliyik. Uzaqda olanları isə daha az dəqiqliklə, sanki tüstü arxasında imiş kimi rəsm etməliyik. Fəza perspektivası nəzərə alınmadan çəkilən rəsm yastı görünür.

Mənzərənin hüdudlarını naturada asan müəyyənləşdirmək və baxış nöqtəsini düzgün təyin etmək üçün videoaxtarışlardan istifadə etmək olar.

Eyni mənzərə hava şəraitinin vəziyyətindən, işıqlanma dərəcəsindən, günün vaxtından və digər məsələlərdən asılı olaraq başqa cür görünə bilər. Mənzərə işlənərkən bunlar nəzərdən qaçırılmamalıdır.

Təsvir prosesinə yeni başlayanlar adətən unudurlar ki, eyni əşyalar qeyd etdiyiiz məsələlərdən asılı olaraq həmişə eyni cür görünmürlər. Bu isə onların müəyyən səhvlər buraxmalarına səbəb olur. Bu cür səhvlər rəngləmə prosesində özünü göstərir. Əşyaların rəngləri onların işıqlanma dərəcəsindən, hansı fəza vəziyyətində olmasından və s. faktorlardan asılı olar.

Səmanın, otların, torpağın, ağacların, daşların və başqa əşyaların rəngləri onların necə işıqlanmasından, günəş şüalarının necə düşməsindən, onlara kölgə düşüb-düşməməsindən və s. məsələlərdən asılı olaraq dəyişə bilir. Məsələn, günəş batan vaxtı səhər tezdənə və gündüzə nisbətən onun rəngi daha qırmızı olur. Bu kimi məsələləri təsviretmə işinə yeni başlayanlara mütləq xatırlatmaq lazımdır.

Mənzərə təsvirində işıq-kölgənin verilməsi mühüm rol oynayır. Qeyd etdiyimiz kimi günün müxtəlif vaxtlarında (səhər, günorta, axşam, gecə) işıqlanma dərəcəsindən asılı olaraq mənzərə haqqında təsəvvür dəyişir. Əgər səhər və axşam çəkilmiş mənzərələri müqayisə etsək fərqləri aydın görünər. Səhər çəkilmiş mənzərədə konturlar duman içərisində kimi görünür. Odur ki, səhər mənzərə çəkərkən ön plandakı əşyaların konturlarını yüngül, arxa plandakı əşyaların konturlarını zəif çəkmək lazımdır. Axşam isə əksinə, səmanın fonunda bütün əşyalar siluet şəklində aydın seçilir, kölgələr tündləşir. Yağışlı, çiskinli günlərdə yer və üzərindəki əşyalar səmadan tünd olur. Günəşli günlərdə isə bütün yer və bitkilər səmadan tünd olsalar da, birbaşa işıq düşən əşyalar səmadan açıq (işıqlı) rənglərdə olurlar. İşıq-kölgə təzadları günəşli və buludlu gündə, səhər və günorta, axşam və aylı gecədə fərqli olur.

Mənzərə təsviri çəkilərkən suda (çayda, göldə, dənizdə, okeanda və s.) əşyaların təsvirlərinin verilməsi bir sıra çətinliklərlə müşayət olunur. Suda əşyaların işıqlı yerləri adətən tünd, kölgələri isə işıqlı görünür. əşyaların xətlərinin dəqiqliyi azalır.

Su təlatümlü olanda o səmanı müxtəlif hissələrlə əks etdirir – zenitdə, rəsm çəkən adamın arxasında və s. Ona görə də suyun səthi onun üzərindəki səmadan açıq rəngdə olur. İşıqlanmanın incəliklərini dəqiqliklə verməyi öyrənmək və mənzərənin vəziyyətini əhatə etməyi bacarmaq üçün təbiəti hər gün rəsm etmək lazımdır.

Çətin mənzərələri çəkməzdən əvvəl onun ayrı-ayrı hissələrini, ən sadə süjetlərini çəkməyi öyrənmək lazımdır. Məsələn, ağacın köklə birləşən gövdəsini, bir daşı və ya bir qrup daşları, ağacların ayrı-ayrı budaqlarını və s. Müxtəlif (tək-tək) ağacların rəsmlərinin çəkilməsinə xüsusi diqqət vermək lazımdır. Buludlar toplusunun qısa müddətli rəsmlərini (zarisovkalarını) çəkmək faydalıdır. Naturadan mənzərə və ya onun elementlərini çəkmə prosesinin xüsusi bir qaydası yoxdur. Mənzərə təsvirlərinə yanaşma naturadan hər hansı bir əşyanı təsvir etməklə eynidir. Belə ki, ayrı-ayrı əşyaların və ya natürmortun çəkilməsi zamanı əvvəlcə ümumi formanı, onun nisbətlərini, quruluşunu müəyyən edərək konstruktiv rəsmini, sonra isə tədricən işıq-kölgə qaydalarına əməl edərək detallarını işləmək mənzərə təsvirində də eyni olaraq qalır.

Bütün mənzərələri iki qrupa, iki kateqoriyaya bölmək olar:

Formaca, xaraktercə maraqlı quruluşa və məzmuna malik əşyalardan ibarət mənzərələr. Belə mənzərələrdəki bütün əşyalar xüsusi xarakterə malik olurlar, ilin bütün vaxtlarında və istənilən hava şəraitində maraq doğururlar. Bu cür mənzərələri naturadan işləmək daha məqsədəuyğundur.

İşıqlanmasına və vəziyyətinə görə maraqlı təbiət mənzərələri. O istənilən mənzərə ola bilər. Mənzərəni təşkil edən elementlərə çoxmərtəbəli binalar, tikililər, bitkilər aləmi və s. daxil ola bilər. Belə mənzərələri işləyərkən işığın təsirindən asılı olaraq kölgələr tez dəyişdiyinə görə onların arzuolunan vəziyyətini tutub qısa müddət ərzində naturadan müşahidə edib yadda saxlamaqla sonradan yaddaşa əsaslanaraq işləmək məqsədəuyğundur. Çünki, onların lazımi effekti qısamüddətli olur.

İstənilən mənzərənin işlənmə metodunu seçərkən qeyd olunan bu xüsusiyyətləri nəzərə almaq lazımdır. Mənzərənin seçilib işlənməsi zamanı rəsmedənin zövqü və bədii hissiyatı orada əksini tapır ki, bu da çox vacib keyfiyyətlərdir.

Xarakterinə görə mənzərələri təxmini olaraq çoxplanlı açıq dərin fəzalı və azplanlı qapalı fəzalı olmaqla iki yerə bölmək olar.

Mənzərənin işlənməsində birinci planın seçilməsi xüsusi rol oynayır. Bütün hallarda birinci plan istər işıqlılığına, istər rəng effektinə, istər əşyaların həcminə və s. görə digər planlardan seçilir. Bütün bu hallar mənzərənin kompozisiya xarakterini və öünəməxsus formasını müəyyənləşdirir.

Mənzərə üzərində işi bircə etüdlə məhdudlaşdırmaq olmaz. Bunun üçün təbiəti dəfələrlə müşahidə edib müxtəlif saatlarda, müxtəlif hava şəraitlərində etüdlər etmək lazımdır. Öz-özlüyündə təbiət həddindən çox müxtəlifliyə, rəhgarəngliyə və quruluşa malikdir.

Təbiətdə mövcud olan agaclar, kollar, daşlar və digər bitki örtüyü hava şəraitinə və işıqlanma dərəcəsinə, günün, ilin vaxtına görə müxtəlif rəng tonlarında və çalarlarında ola bilirlər. Hətta eyni rəngli bitkilər günün altında və ya kölgədə inkişaf etməsindən asılı olaraq eyni rəngin müxtəlif tonlarında və çalarlarında olurlar. Rəsmetmə zamanı bu xüsusiyyətin nəzərə alınaraq düzgün həllini tapması mənzərənin taleyində xüsusi rol oynayır.

Ədəbiyyat

Е.В.Шорохов. «Основы композиции», Москва, 1970, 304 страница.
Əli Verdiyev «Dəzgah rəngkarlığı», Bakı, 1988, 72 səhifə.
Г.Б.Беда «Основы изобразительной грамоты», Москва, 1981, 240 страница.
Н.Н.Ростовцев «Методика преподавания изобразительного искусства в школе», Москва, 1980, 240 страница.
В.С.Кузин. «Методика преподавания изобразительного искусства 1-3 классах», Москва, 1979, 223 страница.
В.С.Щербаков «Изобразительное искусства», Москва, 1969, 272 страница.

СВОЕОБРАЗНЫЕ ОСОБЕННОСТИ ИЗОБРАЖЕНИЕ ПЕЙЗАЖА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

Мамедов Фаиг Шаиг оглы

Резюме

В статье даны своеобразные особенности изображение пейзажа при обучении изобразительному искусству. Показаны методы и приемы обучения пейзажной живописи. Эти методы и приемы для начинающих художников имеют огромное значение и приносят им пользу.

THE PECULIAR FEATURES OF LANDSCAPE PAINTINGS IN FINE-ARTS

Mammadov Faig Shaig

Summary

While drawing landscapes in fine arts, their peculiarities are investigated and commented in the article. There are given important advices for those who are new in painting.

Rəyçi; prof . Məmmədov Mərdan
Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu Daxil olduğu tarix 20 dekabr 2021-ci il

UOT -37.01

RƏNGLƏRİN İNSAN PSİXOLOGİYASINA TƏSİRİ

Səfərova Anna Elxan qızı
Gəncə Dövlət Universiteti
Seferlianna1@gmail.com

Xülasə: *Bu gün rənglərin simvolikasından reklam biznesində geniş istifadə olunur. Psixoloqlar müəyyən ediblər ki, göy, qızılı, ağ, qara və qırmızı rənglərdən hər hansı məhsulu elit təbəqəyə layiq kimi göstərmək məqsədilə istifadə etmək olar, çünki bu rənglər ta qədim zamanlardan elit təbəqəni simvolizə edən "bahalı" rənglər hesab edilirlər. Həqiqətən də, bahalı məhsullarda göy və ya qara rəngin qızılı rənglə sintezindən geniş istifadə olunur. Qara rəng loqotipi (məsələn, qızılı rənglə yazılmış loqotipi) və ya məhsulun öz təsvirini daha effektiv şəkildə önə çıxarmağa imkan verir.*